**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# GƏNCƏ ƏDƏBİ MÜHİTİ
# (1960-2000-ci illər)

İxtisas: 5716.01- Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Gülnar Səfdər qızı Hüseynova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Məhərrəm Paşa oğlu Qasımlı** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Şahbaz Şamı oğlu Musayev** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Ülviyyə Həsaməddin qızı Rəhimova** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Şöhrət Nüsrət qızı Məmmədova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ______________ | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi: ______________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri: ______________ | filologiya elmləri doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tarixən qədim ərazilərimiz olan Təbriz, Gəncə, Bakı, Şamaxı, Qarabağ, Naxçıvan, Şəki, Qazax, Lənkəran, Ərdəbil, Quba, Dərbənd, Borçalı mahalında yaranan ədəbiyyat XX yüzillikdən etibarən öz inkişafının yeni bir mərhələsinə qədəm qoymuşdur. Bakıda olduğu kimi bölgələrdə də öz fəallığı ilə seçilən ədəbi həyat, yaranan yeni əsərlər özünəməxsus xüsusiyyətləri ilə fərqlənirdi.

Gəncə Azərbaycanın ən qədim mədəniyyət, incəsənət və elm mərkəzlərindən biridir. Elə bir bu faktı xatırlatmaq kifayətdir ki, dahi şairimiz Nizami Gəncəvi burada yaşamış, bütün Şərq və dünya ədəbiyyatının fəxrinə çevrilmişdir. Onunla bir əsrdə yaşayan Məhsəti Gəncəvi, Əbülüla Gəncəvi, Qivami Mütərrizi kimi şairlər də XII əsr ədəbiyyat tariximizin inkişafında mühüm rol oynamışdılar.

Sonrakı yüzilliklərdə də bu ədəbi mühit öz təsir dairəsini genişləndirmiş, hər əsrdə yeni ədəbi şəxsiyyətlər və yaratdılan dəyərli əsərlərlə diqqəti cəlb etmişdir. Belə ki, Azərbaycanda ilk dəfə 1820-ci ildə Gəncə ədəbi məclisi ("Divani-hikmət") fəaliyyətə başlamış, böyük şairimiz Mirzə Şəfi Vazehin rəhbərliyi ilə həm Gəncədə, həm də Tiflisdə şeir-sənət həvəskarlarını öz ətrafına toplamışdır. Qeyd etmək lazımdır ki, əldə dəqiq tarixi fakt və sənədlərin olmasa da, XII əsrdən etibarən Gəncədə ədəbi məclislərin mövcudluğu və bu məclislər çevrəsində də ədəbi mühitin mümkünlüyü məntiqə uyğun bir gerçəklikdir.

XX əsrin 20-50-ci illərində isə Gəncə ədəbi mühiti üçün yeni mərhələyə başladı. Belə ki, 20-ci illərinin sonundan başlayaraq burada ədəbi təşkilat fəaliyyətə başlamış, bu da istedadlı şair və nasirlərin ilk yaradıcılıq uğurlarının formalaşmasına zəmin yaratmışdır. Qeyd edək ki, bu dövrün öyrənilməsi istiqamətdə aparılmış araşdırmalar arasında Gəncə Dövlət Universitetinin dosenti Qivami Qazıyevin tədqiqatlarını, xüsusən də dissertasiya işi və onun əsasında hazırlanmış monoqrafiyasını xüsusi qeyd etmək lazımdır.[1]

[1] Qazıyev, Q. Gəncə ədəbi mühiti (1900-1930) / Q.Qazıyev. – Gəncə: Gəncə Dövlət Universiteti nəşriyyatı, –2024. – s. 268.

Bizim apardığımız tədqiqat isə 1960-2000-ci illərdəki Gəncə ədəbi mühitinə həsr olunmuşdur. Həmin illərdə Gəncə ədəbi mühiti Bakıdan sonra Azərbaycanın ikinci ədəbiyyat ocağı kimi fəaliyyət göstərmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Yazıçılar Birliyinin hazırda iyirmiyə yaxın (həm Azərbaycanın özündə, həm də onun hüdudlarından kənarda) bölməsi fəaliyyət göstərir. Bunların içərisində yaranma tarixinə görə birinci sırada Gəncə durur.

Mövzunun aktuallığını şərtləndirən əsas səbəblər bunlardır:

- 1960-2000-ci illər Gəncə ədəbi mühitinin müasir Azərbaycan ədəbiyyatında tutduğu yeri müəyyənləşdirmək, yəni Gəncə ədəbi mühitinin xarakteristikasını, başlıca, spesifik xüsusiyyətlərini aydınlaşdırmaq üçün onun inkişaf istiqamətlərini təhlil etmək lazımdır;

- Qeyd olunan illər ərzində Gəncədə yaşayıb-yaradan şair, nasir, dramaturq, publisist və tənqidçi-ədəbiyyatşünasların fəaliyyəti özünün elmi-filoloji təhlilini tam və dolğun şəkildə tapmamışdır. Bu səbəbdən də, bu yöndəki boşluğu aradan qaldırmaq zərurəti yaranır;

- Gəncə ədəbi mühiti müasir Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsidir, ona görə də bu mühitdə baş verən proseslərin digər bölgələrdəki ədiblər və ədəbi-bədii yaradıcılıq nümunələri ilə əlaqəsini, oxşar və fərqli cəhətlərini aşkarlamaq lazımdır.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə isə, ilk növbədə onu qeyd etməliyik ki, 1960-2000-ci illərdəki Gəncə ədəbi mühitinin dolğun təsvirini verən bir araşdırma demək olar ki mövcud deyildir. Aparılan tədqiqatlar daha çox konkret şairlərin, nasir və dramaturqların, eyni zamanda alimlərin yaradıcılığı barədədir. [2]

---

[2] Yusifli, V. Bölgələrdə ədəbi həyat – Gəncə Tovuz / V.Yusifli. – Bakı: Elm və təhsil, –2017. – s.45-65; Mehdi, Q. Qərib hey! // – Bakı: Azərbaycan. – 2016. № 6, – s.118-122; Yusifli, V. Zövqi-dünyanın adamı // – Bakı: Azərbaycan. – 2017. № 7, – s.147-151; Rüstəmli, A. Məmməd Alim (elmi oçerk) // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə], – Bakı: Elm və təhsil, – I c. – 2016. – s.769-794; Saləddin, Ə. Əhməd Cavad // – Bakı: Gənclik, – 1992. – s.333; Səfiyev, A. Azərbaycan dramaturgiyası müasir mərhələdə (1960-1980) // – Bakı: Ozan, – 1998. – s.275; Bağırov, B. Xəzanlı (monoqrafiya) / B.Bağırov. – Bakı: Ozan, – 2001. – s.220.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ötən əsrin yetmişinci illərindən başlayaraq hər il "İlin ədəbi yekunları" adı altında müzakirələr keçirir. 2014-cü ildən etibarən bu məruzələr "Ədəbi proses" seriyasında kitab halında nəşr olunmağa başlanmışdır.

2015-ci ildə bu müzakirələrə "Bölgələrdə ədəbi həyat" mövzusunun da əlavə edilməsi konkret bölgələrdəki Azərbaycan ədəbiyyatının tədqiqinə və təbliğinə yönəlmiş dəyərli bir addım kimi qiymətləndirilə bilər. Qeyd edək ki, "Ədəbi proses – 2015" məruzəsində Gəncədə yaşayan Bahadur Fərmanın, "Ədəbi proses – 2016" məruzəsində isə Xəzangül və Aydın Murovdağlının yaradıcılığı haqqında oçerklər yer almışdır.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın əsas obyektini 1960-2000-ci illərdəki Gəncə ədəbi mühitinin keçdiyi inkişaf yolu, bu prosesdə o bölgədə yaşayan yazıçı, şair, publisist, tənqidçi və ədəbiyyatşünasların yaradıcılığının təhlili təşkil edir. Tədqiqatın predmeti isə 1960-2000-ci illərdəki Gəncə ədəbi mühitidir. Bununla yanaşı, bəzi istisna yanaşma halları da vardır. Belə ki, tədqiqatda XXI əsrin birinci yarısında yaranan bəzi əsərlərə də müqayisə məqsədilə uyğun məqamlarda müraciət olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi 1960-2000-ci illərdə Azərbaycanın Gəncə ədəbi mühitində yaranmış əsərlərin araşdırılması və təhlil edilməsi, mövzusundan asılı olmayaraq, hər bir əsəri bədii-estetik dəyərləndirmə və elmi yanaşmalar baxımından qiymətləndirməkdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur:

− Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Gəncənin keçdiyi tarixi inkişaf yolu haqqında yığcam və ümumi məlumat vermək;

− Gəncə ədəbi mühitinin qədim dövrlərdən (konkret olaraq Nizami Gəncəvi dönəmindən) başlayaraq əsas səciyyəvi xüsusiyyətlərini ümumiləşdirib izah etmək;

− Gəncə ədəbi mühitinin tarixi ənənələrinin XX əsrin ikinci yarısında necə davam etdirilməsi və 1960-2000-ci illərdə (yeni mərhələdə) əsas inkişaf istiqamətlərini müəyyənləşdirmək;

− XX əsrin ikinci yarısında - Gəncə ədəbi mühitində yaradıcılıq axtarışlarının əsas meylləri və istiqamətləri haqqında müəyyən təsəvvür yaratmaq;

− 1960-2000-ci illərdə Gəncədə yaşayıb-yaradan şairlərin müxtəlif mövzularda (Azərbaycan və Gəncə, istiqlal mücadiləsi, Qarabağ mövzusu, müstəqillik illərinin şeirləri, peyzaj lirikası, lirik-romantik duyğular və s. mövzularında) yazdığı şeirləri, həmçinin poemaları məzmun və bədii sənətkarlıq baxımından dəyərləndirmək;

− Gəncədə yaşayan nasirlərin yaradıcılığını ayrı-ayrı janrlar üzrə (hekayə, povest, roman) izləmək və yaranan nəsr əsərlərinin səciyyəvi xüsusiyyətlərini təhlil etmək;

− Gəncədə yaranan dram əsərlərinin müasir həyat və müasirliklə nə dərəcədə bağlı olduğunu açıqlamaq;

− Gəncədə yaşayıb-yaradan ədəbiyyatşünas və tənqidçilərin əsərləri haqqında dolğun bilgi vermək;

− 1960-2000-ci illər Azərbaycan poeziyası, nəsri, dramaturgiyası və tənqidi-ədəbiyyatşünaslığın keçdiyi yolun Gəncə ədəbi mühitinə təsir imkanlarını müəyyənləşdirmək;

− Publisistik əsərlərin (xüsusilə, Əhməd İsayevin "Gəncə və gəncəlilər" kitabının) Gəncənin ədəbi mühiti və tarixinin araşdırılması, eyni zamanda yetirdiyi şəxsiyyətlərin tanıdılmasında xüsusi rolunu nəzərə çartdırmaq.

**Tədqiqat metodları.** Tədqiqat işi müasir ədəbiyyatşünaslığın mühüm elmi-nəzəri prinsipləri nəzərə alınmaqla yazılmışdır. Mövzunun tədqiqi zamanı müqayisəli-tarixi metod və sistemli təhlil üsullarından istifadə edilmişdir. Gəncə ədəbi mühitinin inkişaf istiqamətlərinin araşdırılmasında eləcə də tipoloji və fərdi yanaşma üsulları əsas götürülmüşdür.

**Tədqiqatin elmi yeniliyi.** Təqdim olunmuş tədqiqatın elmi yeniliyi ilk növbədə ondan ibarətdir ki, bu dissertasiyada 1960-2000-ci illərin Gəncə ədəbi mühitinin ayrı-ayrı ədəbi janrlar, həmçinin tənqid, ədəbiyyatşünaslıq və publisistik əsərlər daxilindəki ədəbi-tarixi dinamikası və inkişaf tendensiyaları bir araya gətirilir, bu əsərlər ədəbi mühitin sənət şəbəkəsi daxilində təhlil edilir, onların bədii-estetik dəyəri üzə çıxarılır. Həmçinin bu əsərlərlə bağlı yazılan məqalə və resenziyalara müraciət olunur, onların ədəbi-estetik

mövqeyi dəyərləndirilir. Buradan ədəbi-bədii axtarışların Bakıdakı sənət çevrəsi ilə əlaqələri müəyyənləşdirilərək ədəbi-tarixi prosesə dəyər verilir. İlk dəfə Gəncə ədəbi mühitində öz əsərləri ilə tanınan, lakin Azərbaycan ədəbi prosesində kifayət qədər tanınmayan yazarların ədəbi və elmi fəaliyyəti də tədqiqata cəlb olunur. Bu əsər Gəncə ədəbi mühitinin 1960-2000-ci illər arasındakı ədəbi-tarixi mənzərəsini monoqrafik aspektdə ortaya çıxaran ilk elmi tədqiqat işidir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiya işində, əsasən, aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

− Gəncə ədəbi mühitinin 1960-2000-ci illərdə Azərbaycan ədəbiyyatında özünəməxsus yerini və mövqeyini, bu illər ərzində əldə etdiyi uğurları nəzərə çarpdırmaq;

– Gəncədə yaşayan ədəbi qüvvələrin hər birinin yaradıcılığındakı fərdi, özünəməxsus üslubi xüsusiyyətləri izləmək, bunları elmi cəhətdən dəyərləndirmək;

− Poeziya və nəsrlə bağlı fikir və mülahizələr irəli sürülərkən təhlilə cəlb olunmuş əsərlərin müasir gerçəkliklə nə dərəcədə bağlı olduğunu elmi əsaslarla aydınlaşdırmaq;

− Tədqiqatda haqqında danışılan dram əsərlərinin Bakı və Gəncə teatrı ilə münasibəti (əsərlərin teatr taleyi) aydınlaşdırmaq, dram əsərlərinin janrı ilə bağlı (lirik dramlar, komediyalar, vodevillər) konkret təkliflər əsasında tədqiqata cəlb etmək;

− Gəncəli alimlərin (tənqidçi və ədəbiyyatşünasların), həmçinin publisistlərin Azərbaycan ədəbi prosesində, elmi-tənqidi çevrəsində mühüm rolunu əks etdirmək;

− Gəncəli yazarların əsərlərində sənətkarlıq məsələləri, onların ayrı-ayrı ədəbi növ və janrlarda nümayiş etdirdikləri bədii üslubi axtarışları təhlil etmək.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada 1960-2000-ci illərdə Gəncə ədəbi mühiti (həm də onun keçmişi), burada yaranan bədii, elmi və publisistik əsərlər nəzəri-filoloji cəhətdən tədqiq olunur. Ali məktəblərin humanitar, xüsusilə, filologiya fakültələrində bu dissertasiyada öz əksini tapan əsərlər və onların müəllifləri haqqında tədris zamanı istifadə oluna bilər. Bölgə

ədəbiyyatını araşdırmaq istəyən magistr və doktorantlar üçün də bu əsərdəki elmi mülahizələr fayda verə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Gəncə Dövlət Universitetinin Elmi Şurası və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Filologiya üzrə Elmi Şurasında təsdiq olunmuşdur. Dissertasiyanın əsas məzmunu, elmi müddəaları, yenilik və nəticələri dissertantın Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli və xarici jurnallarda, konfrans materiallarına öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinnin strukturu və ümumi həcmi**. Dissertasiya işi giriş (12 520 ş.i.), üç fəsil (I fəsil 28 027 ş.i.; II fəsil 119 720 ş.i.; III fəsil 71 098), nəticə (7 222 ş.i.) və ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işi ümumilikdə, 238 587 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur hissələrinin ayrıca məzmunu haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Gəncə ədəbi mühitinin tarixi mənzərəsi və XX əsrdəki başlıca yaradıcılıq yönləri: poeziya ədəbi həyatın əsas istiqaməti kimi"** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. **"Gəncədəki ədəbi həyatın tarix içindəki yeri"** adlanan birinci paraqrafda Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Gəncənin tarixinə qısaca ekskursiya edilir, onun qədim bir şəhər kimi necə yaranmasından, təbiət gözəlliklərini

özündə əks etdirən bir diyar olduğundan söz açılır. Gəncənin əsrlər boyu Azərbaycan mədəniyyətinin inkişafında, burada ədəbi-mədəni həyatın formalaşmasında müstəsna rol oynadığı sözü gedən bölmə boyu xronoloji ardıcıllıqla nəzərə çarpdırılır, dahi Nizami Gəncəvinin ədəbi şöhrəti, XII əsrdə yandırdığı poeziya şamının heç vaxt sönmədiyi xatırlanır. Ulu öndər Heydər Əliyevin Nizaminin anadan olmasının 840 illiyilə əlaqədar verdiyi qərar və Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin fərmanına əsasən 2021-ci ilin "Nizami ili" kimi dəyərləndirilməsi bir daha Nizami sənətinin ölməzliyini təsdiq edir. Xalq şairi Məmməd Araz Nizaminin ölməz sənətini bir fikir bahadırı kimi belə dəyərləndirir:

*Hər külək ağzında bir səmtə varsam,*
*Açılmaz şeirimin qızıl dan yeri.*
*Əgər yer üzündə Nizami varsa,*
*Fikir dartımıdır fırladan yeri.* [3]

Dahi Nizaminin təsir dairəsi həm yaşadığı əsrdə, həm də sonrakı əsrlərdə daim hiss edilmişdir. XII əsr Azərbaycan ədəbiyyatı Gəncədə yaşayan və Nizaminin müasirləri olan Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi, Qivami Mütərrizi kimi qüdrətli sənətkarlar da yetirmişdir. Azərbaycanda ilk ədəbi məclis – "Divani-Hikmət" 1820-1830-cu illərdə Gəncədə təşkil olunmuşdu. Gəncədə ədəbi mühitin XIX əsrdə yeni bir mərhələyə daxil olması bu ədəbi məclisin fəaliyyəti ilə birbaşa bağlıdır. Məclisin yaradıcısı öz şeirləri ilə Gəncədə şöhrətlənən mütəfəkkir şair Mirzə Şəfi Vazeh (1794-1852) olmuşdur ki, onun Gəncə ədəbi həyatındakı mövqeyi də bu bölmədə yığcam işıqlandırılır. Gəncə ədəbi mühitinin tarixi mənzərəsi haqqında sözə XII əsrdə Nizamidən, XIX əsrdə Mirzə Şəfi Vazehdən başlamağımız səbəbsiz deyil. Bu mühit öz tarixi kökünə, ilkin ədəbi-estetik qaynaqlarına bağlı olduğunu bu yüzilliklərin davamı kimi XX əsrdə də qoruyub saxlamışdır.

I fəslin **"XX əsrin birinci yarısında yeni yaradıcılıq axtarışlarının təşkili prosesi və onu gerçəkləşdirən ədəbi**

[3] Araz, M. Seçilmiş əsərləri / M.Araz. – Bakı: Şərq-qərb, – 2010. – s.309

**simalar"** adlı II paraqrafında Gəncə ədəbi mühitinin XX əsrin 20-30-cu illərindəki fəaliyyəti nəzərə çarpdırılır. Bu ədəbi mühitin formalaşmasında ayrı-ayrı ədəbi şəxsiyyətlərin rolu danılmazdır. Böyük şairimiz Səməd Vurğunun, görkəmli yazıçı-ədəbiyyatşünas Mir Cəlal Paşayevin, məşhur türkoloq Əhməd Cəfəroğlu, Əhməd Cavadın, xalq şairi Nigar Rəfibəylinin, Əhməd Cəmilin, Zeynal Xəlilin,Ələkbər Ziyatayın, xalq şairi Nəriman Həsənzadənin, yazıçı-publisist Nurəddin Babayevin, tənqidçi Cahanbaxş Cavadzadənin, görkəmli ədəbiyyatşünas, akademik Həmid Araslının ilkin yaradıcılıqları məhz Gəncə ədəbi mühitində keçmişdir. Səməd Vurğun burada qısa müddətdə müəllimlik etmiş, Mir Cəlal Paşayev Gəncə darülmüəllimliyində təhsil almış, ilk hekayə və oçerklərini yazmış, Əhməd Cavad isə 1906-1912- ci illərdə Gəncədə yaşamışdır. Onun "Gəncəm, hey" şeiri Gəncə haqqında yazılan ən gözəl poetik örnəklərdən biridir.

*Bura Şahsevəndi, bura Bağmandı*
*Bura Sərdar bağı, bura Ozandı.*
*Görənlər bilənlər sana heyrandı*
*Bəzənsin çöllərin, Gəncəm, Gəncəm hey* [4].

Adları çəkilən bu sənətkarların bir çoxu 20-30-cu illərdə Gəncə ədəbi mühitinin formalaşmasında çox mühüm rol oynamışlar. Məsələn, Əhməd Cəmil Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin Gəncə bölməsində fəal iştirak etmişdir. Tənqidçi Məmməd Kazım Ələkbər, şair Əli Razi Şəmçizadə, Ələkbər Ziyatay da müxtəlif illərdə filiala rəhbərlik etmişdir. Gəncə ədəbi mühiti inkişafında həmin ədəbi simaların böyük rolu olmuşdur. Əllinci illərdə bu prosesdə böyük rol oynayan yazıçı-dramaturq-tənqidçi Altay Məmmədovun (1930-2003) xidmətləri danılmazdır. Bu dönəmdəki Gəncənin ictimai həyatını da onsuz təsəvvür etmək mümkün deyildir.

---

[4] İsayev, Ə. Gəncə və gəncəlilər / Ə.İsayev. – Gəncə: Qapp-poliqrafiya, – 2010, – s.202.

Gəncə ədəbi mühitində yeniləşmə meylləri keçən əsrin 60-cı illərindən başlayır. Bütün Azərbaycan ədəbiyyatında olduğu kimi Gəncə ədəbi mühitində də həyat həqiqətlərinin təsvirinə, insanın daxili aləminin işıqlandırılmasına bu tarixi mərhələdən meyl artırdı. Poeziyada müasirlik həyat həqiqətlərinə, dünyada baş verən hadisələrə, cəmiyyətdə nəzərə çarpan ictimai-siyasi proseslərə münasibətdə keyfiyyət dəyişiklikləri ilə müşahidə olunurdu. Təbii ki, bu sırada yeni insan-yeni qəhrəman axtarışları xüsusilə diqqəti cəlb edirdi. Ənənəvi sxematik, süni "müsbət" qəhrəmanlar sadə, adi "boyaların qarışığında" təsvir olunan insan obrazları ilə əvəz olunurdu. Poeziyada müəyyən şablonlardan, streotiplərdən uzaqlaşan şeirlərin də köhnə ifadə tərzinə və ifadə üsullarına qarşı etiraz kimi səslənirdi.

Dissertasiyada vurğulanır ki, Azərbaycan ədəbiyyatında hansı proseslər baş verirsə, Gəncə ədəbi mühiti də o proseslərə qoşulurdu. Dissertasiyadakı növbəli fəsildə ayrı-ayrı ədəbi janrlarda yaranan əsərlərin təhlilində həmin fikir və mülahizələr öz elmi ifadəsini tapır.

I fəslin **"Poeziyada ənənə və altmışıncı illərdən başlanan keyfiyyət yeniləşmələri"** adlanan üçüncü paraqrafında 1960-2000-ci illərdə Gəncə ədəbi mühitinin poeziya mənzərəsi canlandırılır. Öncə Azərbaycan poeziyasında müşahidə olunan yeniliklər nəzərə çarpdırılır. Tənqidçi Vaqif Yusiflinin qeyd etdiyi kimi, *"60-70-ci illər poeziyasında insan obrazı 2 planda daha çox diqqət mərkəzində idi. Birincisi- dövrün, zamanın hüdudlarından kənara çıxan, daha çox ümumbəşəri insan, ikincisi- həyat, dünya və gerçəkliyə bağlı, cəmiyyətdə, yaşadığı mühitdə hər hansı bir konkret hadisəyə dərhal münasibətini bildirən, müasirlik duyğusu ilə yaşayan insan. Birinci halda lirik mən daha çox bəşəriləşirdi. Tarix və müasirlik onda cəmləşirdi, o insanın nə qədər kapital olduğunu gur səslə bildirirdi. İkinci halda isə insan fərdi, subyektiv planda nəzərə çarpırdı. İnsanın daxili aləminə, şəxsi həyatına, təbiətə, gözəlliyə, sevgiyə münasibətində yeni çalarlar diqqəti cəlb edirdi".*[5] 1960-2000-ci illərin poeziyasında məhz insan amili mühüm yer tuturdu və bu bədii

---

[5] Yusifli, V. Poeziyanın yolları və illəri (1960-2000-ci illər) / V.Yusifli – Bakı: Mütərcim, – 2009, – s.114-115.

keyfiyyət Gəncədə yaşayan şairlərin şeirlərində də aparıcı idi, həm də bu istiqamət konkret hadisələrin (təbiətdə və cəmiyyətdə) mənalandırılmasında öz əksini tapırdı.

Dissertasiyanın bu paraqrafında 1960-2000-ci illərin Azərbaycan poeziyasında diqqəti cəlb edən mövzuların Gəncəli şairlərin yaradıcılığında necə əks olunduğu ayrı-ayrı poetik örnəklər əsasında konkret şəkildə nəzərə çatdırılır:

*Yeraltı, yerüstü təkim, təkanım*
*Eşqim, ehtiramım, ədəb-ərkanım.*
*Üçrəngli bayrağım-tale yelkənim*
*Ucadan ucasan Azərbaycanım.*[6]

Azərbaycan tarixində elə hadisələr baş verir ki, həmin hadisələr şairləri həyəcana gətirir. XX əsrdəki istiqlal mücadilələri, Qarabağda baş verən hadisələr, 20 Yanvar faciəsi, Xocalı soyqırımı, gəncəli şairlərin şeirlərində də əks-səda tapıb. Bu sıradan Xəzangül, Məmməd Alim, Bahadur Fərman və Aydın Murovdağlı ötən əsrin 70-80-ci illərində daha fəal idilər. Tədqiqatçı Fazil Sənan şair Bahadur Fərmana həsr etdiyi "Əbədiləşən nəğmələr" adlı kiçik monoqrafiyasında yazır: *"Bahadur Fərman öz poetik yaradıcılığında Vətən məfhumunu özünəxas formada səciyyələndirir. Şairin 20 Yanvar şəhidlərinə həsr etdiyi şeirlərindəki poetik təqdimat bunu əyani göstərir:*

*Qəlbimizə od bələndi,*
*Qəbrimizə nur ələndi.*
*Azərbaycan zirvələndi*
*Yanvar ayı-şəhid günü".* [7]

Gəncəli şairlərin şeirlərində Azərbaycanın ən qədim və ən gözəl şəhəri olan Gəncəyə aid şeirlər də mühüm yer tutur. Gəncədə yaşayan elə bir şair tapılmaz ki, öz doğma şəhərinə şeir həsr etməsin. Bu sırada Fəridə Əlyarbəylinin, İnqilab İsaqın, Aydın

---

[6] Alim, M. Dünya, qapını aç / M.Alim. – Bakı: UNİ print. – 2024. – s.10.
[7] Fazil, S. Əbədiləşən nəğmələr / S.Fazil. – Bakı: Vektor. – 2011. – s. 9-10.

Murovdağlının şeirləri gözəl poetik örnəklərdir. İnqilab İsaqın “Gəncəm mənim” şeirindən bir parça:

*Gəncə dedim…sözüm güldü,*
*Bu ad günəşdən irəli.*
*Düzən yeri, gencə yeri*
*Sehrləyib Tanrı əli.*[8]

Gəncə ədəbi mühitindəki ən aparıcı mövzulardan biri də təbiətin müstəqil şəkildə tərənnümü və insan-təbiət birliyini əks etdirən mövzudur. Rübail Allahverdiyevin, Fəridə Əlyarbəylinin Göygölə, Qoşqara, Maralgölə həsr etdiyi şeirlər bu qəbildəndir. Eyni zamanda təbiət lirikasında nəzərə çarpan dağ, daş, qaya obrazları da diqqətçəkicidir. Dissertasiya boyu gəncəli şairlərin şeirləri bu istiqamətdə geniş təhlil olunur.

Azərbaycan poeziyasının kəmiyyətcə aparıcı axarını heç şübhəsiz, məhəbbət mövzusunda olan lirik-romantik səciyyəli sevgi şeirləri təşkil edir və poetik örnəklərində bu keyfiyyət olduqca güclüdür. Sahib İbrahimlinin “Məhəbbət”, İnqilab İsaqın “Nağıldı yoxsa”, Xəzangülün “Məni dünyaya bağışla” adlı şeirləri müasir Azərbaycan sevgi lirikasının ən gözəl nümunələri kimi yadda qalır.

*İndi duydum oddan köynək geyəni,*
*Dua bildim qara gözlər deyəni,*
*Sahib kimi çox döşünə döyəni,*
*Bir baxışla kül eləyib məhəbbət* [9]

Dissertasiyada milli istiqlal düşüncəsi, Qarabağ mövzusu, şəhidlik, tarixi yaddaşın bərpası, soykökə bağlılıq və s. mövzularda qələmə alınan çoxsaylı şeir və poemalar üzərində təhlil aparılır, ümumiləşdirici qənaətlər söylənilir. Xəzangülün, Fəridə Əliyarbəylinin və nakam şair, I Qarabağ müharibəsinin şəhidi Nizami Aydının Vətən, yurd yanğısı, müharibədə, Qarabağda

[8] Murovdağlı, A. Zəlzələ / A. Murovdağlı. – Gəncə: GDU nəşriyyatı, – 2012. – s. 63.
[9] İbrahimli, S. Bir də baxıb gördüm şeir yazıram / S.İbrahimli. – Gəncə: Əsgəroğlu, – 2001. – s.182.

şəhidliklə bağlı şeirləri də təhlil olunur. Xəzangülün "Haray" poeması, Nizami Aydının şəhidliklə bağlı silsilə şeirləri xüsusilə fərqləndirilir.

*Şəhid oğulların qanından doğur,*
*Vətənin, yurdun çırağı.*[10]

Gəncəli şairlərin müstəqillik illərində yazdığı şeirlər və poemalar da tədqiqat boyu xalqın azadlıq ruhunu ifadə edən poetik nümunələr kimi səciyyələndirilir.

Dissertasiyanın ikinci fəsli **"XX əsrin ikinci yarısı Gəncə ədəbi mühitində gedən yaradıcılıq axtarışlarının mövzu və janr müxtəlifliyi"** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir.

İkinci fəslin birinci paraqrafı **"Altmışıncı illər nəsrinin Gəncə ədəbi mühitində təzahürü və inkişaf dinamikası"** adlanır. Bu paraqrafda ənənəyə sadiq qalaraq ilk növbədə 1960-2000-ci illərdə Azərbaycan nəsrində baş verən keyfiyyət yeniləşmələrindən söz açılır. Görkəmli tənqidçi Akif Hüseynovun "Zamanın və nəsrin hərəkəti" adlı məqaləsində göstərildiyi kimi *"Nəsrimizdə keyfiyyət dəyişiklikləri əllinci illərin ikinci yarısından başlayaraq diqqətəlayiq əsərlərlə təsbit olunur. Poeziya və dramaturgiyada olduğu kimi, nəsrdə də janr-üslub axtarışları hərəkət, irəliləyiş olaraq qabarıq nəzərə çarpır".*[11]

Azərbaycan nəsrində XX əsrin ortalarından başlayaraq yeni ədəbi qəhrəmanlar meydana gəlir və mənfi-müsbət qəhrəmanlar bölgüsü tədricən aradan qaldırılırdı. Görkəmli tənqidçi Yaşar Qarayevin qənaətinə görə, *"Bir dövr vahidi kimi 60-70-ci illər ədəbi fikrini səciyyələndirən cəhət bir də odur ki, müasir insanın, müasir psixoloji və əxlaqi həqiqətlərini daha tam və daha həqiqi dərki axtarışlarında bədii fikir adi, sıravi, sadə qəhrəmanla daha tez-tez rastlaşmağa başlamışdır".*[12] Nəsrlə bağlı sənət axtarışları Gəncə ədəbi mühitində də eyni axarla davam edirdi. Gəncədə Altay Məmmədov, Qərib Mehdi, Nüşabə Məmmədli, Rəfiqə Sadıqova,

---

[10] Aydın, N. Son dua / N.Aydın. – Bakı: XXI Yeni nəşirlər ev, – 1999. – s. 59.
[11] Hüseynli, A. Nəsr və zaman / A.Hüseynli. – Bakı: Yazıçı, – 1980. – s. 13.
[12] Qarayev, Y. Poeziya və nəsr / Y.Qarayev. – Bakı: Yazıçı, – 1988. – s. 55.

Sahib İbrahimli kimi nasirlər fəaliyyət göstərir, onların əsərləri təkcə Gəncədə deyil, ondan kənarda - bütün Azərbaycan ədəbi mühitində tanınırdı. Dissertasiyada haqqında söz açılan müəlliflərin-Gəncədə yaşayan nasirlərin əsərləri janrlar üzrə təhlil olunur, əvvəl hekayələr, sonra povestlər, sonra da romanlar haqqında danışılır. Əsas məqsəd janrlardan asılı olmayaraq haqqında söz açılan həyat həqiqətlərinin bədii həlli, təsvir olunan obrazların "boyaların qatışığında" (bu ifadə tənqidçi Akif Hüseynliyə məxsusdur) təqdim edilməsi, janrın poetikasına əməl olunması izlənilir. Altay Məmmədovun "Narınc", "Məhəbbətin səsi", "Fəxriyyənin arzusu", "Gülab nəfəsli", "Məhəmməd" hekayələri bu prinsiplərə tam cavab verir. Lirik səpkidə yazılan bu hekayələr həm ümumi, həm də forma-sənətkarlıq baxımından o dövrün hekayələri içərisində xüsusilə seçilirdi. Bu hekayələrdə insan amili ön plana çəkilirdi. Gəncədə yaşayan Qərib Mehdi də yaradıcılığa hekayə ilə başlayır. Onun emosional nəql təhkiyəsi var və ötən əsrin yetmişinci illərində ədəbi-nəzəri fikrin diqqətini də cəlb edir. Müxtəlif zamanlarda Mir Cəlal Paşayevin, Akif Hüseynovun, Mürşid Məmmədovun, Rəhim Əliyevin və Vaqif Yusiflinin, Qərib Mehdinin ayrı-ayrı hekayələri haqqında təqdiredici fikirlər elmi-ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Xüsusilə, onun öz hekayələrində canlandırdığı ana obrazları ("Anamın saçları", "Anamın cavabı", "Anamın əlləri", "Ad günümdə", "Torpaq ana-ana torpaq", "Anamın səsi gəlir", "Qərib, hey!") lirik-psixoloji səpkidə qələmə alınmışdır. Onun "Qara zurna" hekayəsi isə milli-mənəvi dəyərlərin təbliğinə həsr olunur. Sahib İbrahimlinin, Aləmzar Əlizadənin hekayələri də insan taleyindən söz açır.

Gəncədə yaşayan Nüşabə Əsəd Məmmədlinin "Bir an", "Dairə", "Vida nəğməsi", "Qürub", "Bəyaz çiçəklərin rəqsi" povestləri mənəvi-əxlaqi problemlərə toxunur. Bu povestlər müxtəlif həyat hadisələrini əks etdirir, müəllif ailələrdə baş verən münaqişələri qələmə alır, təmiz ailə modeli necə olmalıdır sualı ətrafında düşünür. Qərib Mehdinin "Rast" povesti isə bu janrın ən mükəmməl bir nümunəsi kimi təhlil edilir. Roman janrına gəldikdə isə yalnız dörd romanın adı çəkilir və daha çox Nüşabə Əsəd Məmmədlinin "Cavad xan" və Altay Məmmədovun "Əlvida, gözəl

dünya” tarixi romanlarından bəhs edilir. “Cavad xan” romanı Azərbaycan nəsrində igid Cavad xana həsr olunmuş ilk nəsr əsəri idi. Filologiya elmləri doktoru, Vaqif Sultanlı bu roman haqqında yazırdı: *“Daha çox tarixi-siyasi özəllikləri ilə seçilən romanda Cavad xanın xalqın qan yaddaşında mifikləşən, əfsanələşən obrazının yaradılmasına çalışılmışdır”.*[13]

Altay Məmmədovun “Əlvida, gözəl dünya” (1982) romanı da tarixi səpgidə qələmə alınmışdır. Bu romanda bütün hadisələr əsas qəhrəmanın - “Millət İsa” adlandırılan obrazın həyat tarixçəsi ətrafında qurulub. Müəllif onu bir inqilabçı- bolşevik kimi təqdim edir, lakin bu insanın mənəvi meyarı, ədalət prinsipidir.

İkinci fəslin ikinci paraqrafı **“Dramaturji axtarışların mövzu və janr əhatəsi”** adlanır. Adından da göründüyü kimi bu paraqrafda Gəncədə yaşayan ədiblərin dramaturji yaradıcılığından söz açılır. Öncə 1960-2000-ci illərdə Azərbaycan dramaturgiyasında cərəyan edən proseslərdən, mövzu, forma və sənətkarlıq, prinsiplərindən qısaca söz açılır, təbii ki, bu proseslər birmənalı şəkildə Gəncə-ədəbi mühitinə, bu bölgədə yaranan dram əsərlərinə də aiddir. Burada ilk növbədə ədəbiyyata nasir kimi gəlsə də, sonralar dramaturq kimi şöhrətlənən Altay Məmmədovun pyeslərindən söz açılır. Altay Məmmədovun “Həmyerlilər” və “Kişilər” pyesləri komediya janrında, “Yadındamı” pyesi lirik-dramatik janrda qələmə alınıb. “Ulduzlar görüşəndə” və “Dəli Domrul” pyesləri isə məlum bədii əsərlərdən iqtibas edilərək müasir dram əsərləri kimi təqdim edilib. “Həmyerlilər” və “Kişilər” komediyaları sovet dövrünün insanların həyatında doğurduğu maddi-mənəvi qüsurların, eybəcər halların tənqidinə həsr olunmuşdur. “Həmyerlilər”də Azərbaycan məkanında həm o dövrdə, həm də indiki zamanda təsadüf olunan yerlipərəstlik tənqid olunursa, “Kişilər” komediyasında isə gülüşün hədəfləri tufeyli həyat keçirən adamların mənəvi boşluğu tənqid olunur. Hər iki əsər istər Bakı, istərsə də Gəncə teatrlarında uğurla tamaşaya qoyulmuşdur.

[13] Sultanlı, V. Nəsrin özünəməxsusluğu // N.Məmmədlinin “Vida nəğməsi” kitabına ön söz . – Bakı: Nurlan, – 2017. – s.34.

Altay Məmmədovun dramaturji istedadı dissertasiyada nəzəri planda da öz həllini tapır. Belə ki, o iki komediyadan sonra lirik-psixoloji səpkidə “Yadındamı” pyesini yazır. Daha sonra “Ulduzlar görüşəndə” və “Dəli Domrul” kimi tarixi lirik səciyyəli dram əsərlərini qələmə alıb. Bu onu göstərir ki, Altay Məmmədov Cəfər Cabbarlı ənənələrini yaxşı mənimsəmişdir.

Gəncə ədəbi mühitində Altay Məmmədovla yanaşı, digər dramaturqların da əsərlərində maraqlı sənət axtarışları nəzərə çarpır. Fəridə Əlyarbəylinin “Xan qızı” tarixi dramı Xurşidbanu Natəvan haqqında yazılan ilk səhnə əsəridir. O, Natəvanın həyatını, keşməkeşli ömür yolunu tam dolğunluğu ilə canlandıra bilməsə də, onun bir Xan qızı kimi xeyirxahlığını, Qarabağ sevgisini, bir ana kimi də, bir şair kimi də bənzərsizliyini əks etdirməyə çalışmışdır.

Gəncə ədəbi mühitində və eləcə də Azərbaycan ədəbiyyatında bir şair, nasir və həm də tənqidçi-ədəbiyyatşünas kimi tanınan Sahib İbrahimli eyni zamanda, iyirmidən artıq dram əsərinin müəllifidir. Bu əsərlərdən əksəriyyəti komediyadır. Onun bir neçə əsəri müxtəlif illərdə Gəncə Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur (“Maşın”, “Dartma, yaxam cırıldı”, “Mesaj”). Sahib İbrahimli dramaturgiyanın başqa növlərində də qələmini sınamış, onun “Bir ovuc torpaq” və “Qara günün pulu” pyesləri tragikomediyadır.

İkinci fəslin üçüncü paraqrafı **“Bədii yaradıcılıqda folklordan bəhrələnmə”** adlanır. Bu paraqrafda Gəncə ədəbi mühitində yazıçı, şair və dramaturqların folklordan yaradıcı şəkildə necə bəhrələnməsindən söhbət açılır. Müəlliflər folklorun müxtəlif janrlarından istifadə edir, bu da mətnin emosional çalarlarını artırır. Yazıçı məlum mətnə müraciət edib onun müasir variantını yarada bilər, lakin bu yeni variantda orijinala məxsus əsas sujeti, hadisələrin inkişaf xəttini saxlamalıdır. Altay Məmmədov “Kitabi –Dədə Qorqud” eposunun “Dəli Domrul” boyuna müraciət edərkən bu prinsipə sadiq qalmışdır. O, “Dəli Domrul” pyesində dastanda olduğu kimi bir sıra şeir parçalarına yer vermiş, yeri gəldikdə bayatılardan da istifadə etmişdir:

*Əziziyəm, baş əyər,*
*Barlı budaq, baş əyər.*

*Dünya namərd dünyadır,*
*Mərd namərdə baş əyər.*[14]

Qərib Mehdinin yaradıcılığı da folklor örnəklərinə müraciətlə zəngindir. Onun nəsr dili xalq dilinə, folklor ruhuna çox yaxındır. “Qara zurna” hekayəsində Pəri xala professora-onun ailəsinə nə üçün gəldiklərini el ağzıynan belə müraciət edir:

*Salam Ağa, gəlmişəm,*
*Qız almağa gəlmişəm!..*
*Mən oğlanın anasıym,*
*Yalvarmağa gəlmişəm.* [15]

Qərib Mehdinin xalqın düşüncə tərzi ilə səsləşən bədii ifadə vasitələrinə tez-tez müraciət edir. Məsələn, “Gözəl qadınların saçı uzun, ağlı gödək olur”, “fikir eləmə, qara günün ömrü az olar”, “Sonralar bildik ki, sözün yanlışı varmış, yalanı yox” və s.

Şair Bahadur Fərmanın şeir dili də folklor səciyyəli bədii təsvir vasitələrinin zənginliyi ilə diqqəti cəlb edir. O, folklor yaradıcılığının ən zəngin nümunəsi olan qoşmalara, gəraylılara, bayatılara tez-tez müraciət edir. Onun “Əzablı yollar” lirik poeması başdan-ayağa bayatı ruhunda yazılıb. Bu poemada oğul yolu gözləyən bir ananın iztirabları əks olunub.

*Dağımızda lalə var,*
*Ləçəyində jalə var.*
*Ürəyimə dəyməyin,*
*Ürəyimdə nalə var.* [16]

Aşıq şeirinə məxsus poetik biçimlər əsrlər boyu arxaik folklor ruhunu hifz edib, amma hər bir ədəbi mərhələdə yeni məzmunla və yeni ifadə vasitələri ilə diqqəti cəlb edib. Sahib İbrahimli, Ələsgər Əlioğlu, Bahadur Fərmanoğlu, Məmməd Alim, Xəzangül, Aləmzar

---

[14] Məmmədov, A. Dəli Domrul / A. Məmmədov. – Bakı: Gənclik, – 1981. – s.243.
[15] Mehdiyev, Q. Təmiz hava / Q.Mehdiyev. – Bakı: Yazıçı, – 1980. – s.50.
[16] Fərman, B. Durnalar köçür / B.Fərman. – Bakı: Nurlar, – 2019. – s.75.

Əlizadə bu yöndə maraqlı və yaddaqalan örnəklər qələmə alıblar. Məmməd Alimin "Dünya" rədifli gəraylısı folklor ruhu daşıyan səciyyəvi bir örnəkdir:

*Mənəm qəmə, dərdə dolan,*
*Sinəm qəmə, dərdə dalan.*
*Məmməd Alimdir dərd alan,*
*Danış, dərdin alım, dünya!* [17]

Folklor ruhundan gələn bu poetik ovqat Gəncə ədəbi mühitində yenə də öz uğurlu yolunu davam etdirməkdədir.

**"Bölgədə ədəbi tənqid, filoloji araşdırmalar və publisistik fəaliyyət"** adlı üçüncü fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf **"Gəncədə ədəbi-nəzəri fikrin istiqamətləri"** adlanır. Keçən əsrin 60-70-ci illərində Azərbaycan ədəbi tənqidində yeni qüvvələr gəldi. Tanınmış qələm sahibləri Yaşar Qarayev, Şamil Salmanov, Akif Hüseynli, Asif Əfəndiyev kimi tənqidçilər Bakıda ədəbi hadisələrə öz fərqli və yeni münasibəti ilə seçilirdilər. Daha sonrakı illərdə Aydın Məmmədov, Kamil Vəliyev, Nadir Cabbarov, Rəhim Əliyev, Vaqif Yusifli, Vilayət Quliyev, Nizaməddin Şəmsizadə, Kamal Abdullayev, Şirindil Alışanov, İlham Rəhimli, Əsəd Məmmədov, Qurban Bayramov, Məryəm Əlizadə, Rahid Xəlilov kimi tənqidçi və ədəbiyyatşünaslar fəaliyyət sahəsini genişləndirdilər. Təbii ki, adları çəkilən ədəbiyyatşünas və tənqidçilər ədəbiyyatın ən vacib və aktual problemlərinə üz tutdular. Təbii ki, bu proses Gəncə ədəbi mühitinə də təsirsiz ötüşmədi. Gəncədə Bakıdakı qaynar ədəbi mühitdən fərqli olaraq tənqidçilərin sayı çox deyildi. Ancaq hər halda bu bölgədə də bir neçə tənqidçi - ədəbiyyatşünas fəaliyyət göstərir və onlar öz əsərləri ilə Azərbaycan ədəbi prosesində seçilirdilər.

Mürşid Məmmədovun "Poeziya yeni təfəkkür işığında" (1990) monoqrafiyasında Azərbaycan poeziyasının 1960-1970-ci illər mərhələsi sistemli şəkildə təhlil edilir. Monoqrafiyanın "Poeziyanın inkişafında yeni mərhələ" adlanan birinci bölməsində müasirlik və

[17] Alim, M. Dünya, qapını aç / M.Alim. – Bakı: UNİ-Print, – 2024. – s.28.

novatorluq yeni mərhələnin əsas səciyyəvi xüsusiyyətləri kimi dəyərləndirilir. Müəllif yazır: *"Müasirlik əsrin, zamanın yüksək sənət dilində ifadə və təcəssüm olunan bədii həqiqətidir. Müasirliyin belə anlayışı sənət əsərində gerçəkliyin real məzmununun mənası ilə yanaşı, gerçəkliyin fəlsəfi dərkin də özündə ehtiva edir."*[18]

M.Məmmədovu bu monoqrafiyada şairlərin forma, bədii axtarışları, lirik qəhrəman problemi, fəlsəfi lirika nümunələri kimi məsələlər daha çox diqqəti cəlb edirdi.

Yazıçı-dramaturq Altay Məmmədovun "Azərbaycan hekayəsi" (1984) və "Qəlbinur poeziyası XXI əsrin astanasında" əsəri (1998), Sahib İbrahimlinin "Əhməd Cavadın həyat və yaradıcılığının Gəncə dövrü" (1998), "Elm fədaisi" (Mir Cəlalın yaradıcılığında) (2008) monoqrafiyaları uzun sürən dəyərli elmi axtarışların nəticəsi kimi ortaya çıxdı.

Üçüncü fəslin ikinci paraqrafı **"Bölgədə gerçəkləşən filoloji araşdırmalar"** adlanır. Bu paraqrafda Gəncədə yaşayan Sabir Əliyevin (1936-2007), Xəlil Yusiflinin (1935-2022) klassik Azərbaycan poeziyası ilə bağlı tədqiqatları haqqında söz açılır. Sabir Əliyevin "Füzulinin poetikası" (1986), "Füzuli" (1996) və "Füzuli ədəbi estetikası" (2000) monoqrafiyaları ilə füzulişünaslığa, Xəlil Yusifli isə "Nizaminin lirikası" (1968), "Şərqdə İntibah və Nizami Gəncəvi" (2023) monoqrafiyaları ilə nizamişünaslığa dəyərli töhfələr bəxş etmişdilər. Dissertasiyada həmçinin Gəncədə anadan olub, rusiyada elmi fəaliyyətlə məşğul olan Nazimşünas alim Əkbər Babayev (1924-1979), Şərqşünas Tofiq Məliklinin (1942), dünya şöhrətli dilçi və ədəbiyyatşünas alim Əhməd Cəfəroğlunun (1899-1975) yaradıcılıqlarına toxunur. Sədnik Pirsultanlının "Yaşayan əfsanələr" (1973), Rüstəm Rüstəmzadənin "Azərbaycan tarixi qəhrəmanlıq dastanları" (1998) əsərləri də XX əsr Gəncə ədəbi mühitinin elmi yaradıcılıq axtarışları kimi təhlil olunur, bu əsərlərin ədəbiyyatşünaslıqda gətirdiyi yeniliklər şərh olunur.

III fəslin üçüncü paraqrafı **"Tarixi və real həqiqətlərinin publisistikada inikası"** adlanır və bu paraqrafda əsasən yazıçı-

[18] Məmmədov, M. Poeziya yeni təfəkkür işığında / M.Məmmədov. – Bakı: Yazıçı, – 1990. – s.22.

publisist Əhməd İsayevin "Gəncə və gəncəlilər" (1998) kitabından söz açılır. Bu əsərdə Gəncənin keçmişindən bu gününə körpü salır, bu qədim şəhərin mədəniyyət tarixi işıqlandınlır.

Dissertasiya işinin **nəticə** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər ümumiləşdirilmişdir.

1. Azərbaycan ədəbiyyatının ayrılmaz bir parçası olan Gəncə ədəbi mühiti tarixən çox qədim və zəngindir. Belə ki, Gəncə ədəbi mühiti XII əsrdə formalaşmış, nəinki Azərbaycan ədəbiyyatına, Şərq və Dünya ədəbiyyatına ölməz sənətkarlar bəxş etmişdir. Şeyx Nizami Gəncəvi XII əsrin hüdudlarını aşaraq bütün dünyanı fəth etmiş, əsrlər boyu insanlara azadlıq, sülhsevərlik, humanizm və məhəbbət, zülmə, haqsızlığa qarşı mübarizə duyğuları aşılamış, öz əsərlərində ideal cəmiyyətə doğru gedən yolları işıqlandırmışdır. Nizami ilə bir əsrdə yaşayan Məhsəti Gəncəvi Şərq ədəbiyyatında rübai janrının ən gözəl nümunələrini yaratmış, bu rübailərdə eşqi, məhəbbəti, humanizmi, insan azadlığını tərənnüm obyektinə çevirmişdir. Həmin dönəmdə və sonrakı tarixi mərhələlərdə Gəncədə yaşamış digər sənətkarlar da bu yolu uğurla davam etdirmişlər;

2. Gəncə ədəbi mühiti orta çağlardan sonrakı əsrlərdə də öz inkişafından qalmamış, ədəbi-mədəni aləmə zaman-zaman öz təsirini göstərmişdir. İlk dəfə məhz Gəncədə ədəbi məclis təşkil olunmuş, böyük şair-mütəfəkkir Mirzə Şəfı Vazeh "Divani- Hikmət" (XIX əsr) adlandırdığı bu məclisdə Gəncə şairlərini başına toplamış, Azərbaycanda ilk dəfə rəsmi şəkildə şeir-sənət ocağı yaratmışdır. Bu ədəbi məclisin təsirilə Azərbaycanın digər bölgələrində - Qarabağ, Naxçıvan, Tiflis, İrəvan, Bakı, Lənkəran və s. bu səpkidə məclislər yaranmışdır;

3. Heç şübhəsiz, istər Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin, istərsə də Mirzə Şəfi Vazehin və "Divani-Hikmət" məclisi şairlərinin yaratdığı ənənələr bütün zamanlar boyu Gəncə ədəbi mühitinin klassik dövrünü səciyyələndirir, lakin bu ənənələr Gəncə ədəbi mühitini böyük Azərbaycan ədəbiyyatının ayrılmaz bir hissəsinə çevirmişdir;

4. Gəncə ədəbi mühitinin tarixində XX əsrin birinci yarısı da mühüm yer tutur. Belə ki, keçən əsrin ilk iki onilliyində milli

müstəqillik uğrunda gedən mücadilələrdə Gəncədən olan ədəbi qüvvələr öz fəallığı ilə seçilmiş, onların bir çoxunun hətta Bakı mühitinə də güclü təsiri duyulmuşdur. Daha sonra isə sovet hakimiyyətinin gəlişi ilə ədəbi mühit yenidən canlanmış, sosializm ideologiyasının təsiri olsa da, bura Bakıdan sonra ikinci ədəbi mərkəz kimi formalaşmışdır. Gəncə ədəbi mühitinin bu dövründə istedadlı yazarlar yetişmiş (Əhməd Cavad, Səməd Vurğun, Əhməd Cəmil, Mir Cəlal, Ələkbər Ziyatay, Cahanbaxış, Həmid Araslı, Nurəddin Babayev və b.), onlar Gəncədən ayrılsalar da, ilk ədəbi uğurlarını Gəncədə qazanmışlar. Bu dövrü XX əsr Gəncə ədəbi mühitinin inkişafında birinci mərhələ kimi səciyyələndirmək olar;

5. Gəncə ədəbi mühitinin ən parlaq dövrü isə (ikinci mərhələ) 1960-2000-ci illəri əhatə edir. Gəncə ədəbi mühiti bu dövrdə Azərbaycanın ədəbi həyatının qaynar nöqtələrindən birinə çevrilmişdir. Bununla da sübut olunub ki, əsl ədəbiyyat və ədəbi hadisələr təkcə Bakıda-Azəbaycanın paytaxtında yaranmır, həm də onun bir sıra bölgələrində, ən çox da Gəncə ədəbi mühitində yaranıb inkişaf edir. Gəncə ədəbi mühitində yaranan əsərlər həm də böyük Azərbaycan ədəbiyyatının tərkib hissəsidir. Bunu Gəncə ədəbi, elmi mühitində fəaliyyət göstərən sənətkarlara da aid etmək olar. Məsələn, Altay Məmmədov, Qərib Mehdi, Fəridə Əliyarbəyli, Bahadur Fərman, Rübail Allahverdiyev, Xəzangül Hüseynova, Məmməd Alim, Aydın Murovdağlı, Nizami Aydın, Sahib İbrahimli, Nüşabə Əsəd Məmmədli, Rəfiqə Sadıqova, İnqilab İsaq, Aləmzar Əlizadə, İradə Aytel, Ələsgər Əlioğlu təkcə Gəncə ədəbi mühitində deyil, bötövlükdə Azərbaycan ədəbi-mədəni məkanında da tanınır, əsərləri rəğbətlə qarşılanır, oxunur. Yenə bu mühitin arasından çıxan Sabir Əliyev, Xəlil Yusifli, Sadıq Şükürov, Mürşüd Məmmədov, Sədnik Paşayev, Rüstəm Rüstəmzadə, Fazil Sənan, Maqbet Əhmədov, Nəzmiyyə Axundova, Əhməd İsayev isə təkcə Gəncə elmi mühitində deyil, həm də Azərbaycan ədəbi və elmi arenasında yaxından tanınırlar;

6. Heç şübhəsiz, Gəncə ədəbi mühitində janrlar üzrə bölgü aparılarkən birinci sırada poeziya durur. Gəncədə tarix boyu-Nizami Gəncəvidən üzü bəri qüdrətli şairlər yetişmiş və sonrakı əsrlərdə də onun yandırdığı şam heç bir vaxt sönməmişdir, daha da gur

yanmışdır. 1960-2000-ci illərdə Gəncə şeir mühiti Azərbaycan poeziyasının ən qabaqcıl, yenilikci meyllərini ifadə edən şeir və poemalarla diqqəti cəlb etmişdir. Bu sıradan Fəridə Əliyarbəyli, Bahadur Fərman, Rübail Allahverdiyev, Xəzangül Hüseynova, Məmməd Alim, Aydın Murovdağlı, Nizami Aydın kimi istedadlı şairlərin poetik yaradıcılığı daha diqqət çəkir;

7. Gəncə ədəbi mühitində nəsr əsərləri də mühüm yer tutur. Burada Azərbaycan ədəbiyyatının iki görkəmli nasiri - Altay Məmmədovun və Qərib Mehdinin nəsr əsərləri Gəncə ədəbi mühiti hüdudlarını aşaraq müasir Azərbaycan nəsrinin ən maraqlı, həmişə oxucuları cəlb edən nümunələri ilə diqqət mərkəzindədir. Azərbaycan nəsrinin lirik təmayülünü bu nasirlərin yaradıcılığı olmadan təsəvvür etmək mümkün deyildir. Onların hekayə və povestləri müasir həyatdan doğan problemlərə həsr olunub. Gəncə ədəbi mühitinin nəsr mənzərəsi çoxçalarlıdır və burada digər nasirlərin (Sahib İbrahimlinin, Aləmzar Əlizadənin, Rəfiqə Sadıqovanın, Nüşabə Əsəd Məmmədlinin və başqalarının) hekayə və povestləri də diqqəti cəlb edir. Altay Məmmədovun "Əlvida, gözəl dünya" və Nüşabə Əsəd Məmmədlinin "Cavad xan" romanları isə nəsrin bu janrının uğuru kimi yadda qalır;

8. Tarixən Gəncə ədəbi mühitində teatr və dramaturgiyanın da əvəzsiz rolu olmuşdur. Gəncədə teatrın yaranması ilə bağlı müxtəlif fikirlər irəli sürülüb. Bunu XX əsrin əvvəlləri ilə əlaqələndirirlər. Lakin keçən əsrin iyirminci-otuzuncu illərindən başlayaraq Gəncədə Azərbaycan teatrının şanlı dövrü başlanmış və Gəncə teatrı Bakıdakı Baş teatrdan (Akademik Teatr) sonra ikinci ən fəal teatr kimi şöhrət qazanmışdır. Teatr isə dramaturji materialla, səhnə üçün yazılmış dram əsəriəri ilə öz varlığını təsdiq edir. Gəncə ədəbi mühiti şair və nasirlərlə tanındığı kimi bu dövrdə özünün yetişdirdiyi istedadlı dramaturqlarla da diqqət çəkir. Bu sırada yenə Altay Məmmədovun adını birinci çəkmək lazımdır. Onun pyesləri təkcə Gəncədə deyil, Bakı teatrlarında da böyük uğur qazanmışdır. A.Məmmədovun "Həmyerlilər", "Kişilər", "Yadındamı", "Ulduzlar sönmür" pyesləri Azərbaycan dramaturgiyasının ən yaxşı nümunələri sırasında özünəməxsus yer tutur. Gəncədə dramaturqların sayı o qədər də çox deyil, amma bir şair, nasir və ədəbiyyatşünas kimi tanınmış Sahib

İbrahimlinin dramaturji yaradıcılığı da diqqətdən yayınmır. Sahib İbrahimli əsasən komediya yazır və bu komediyalarda müəllif həyatın gülüş və məzhəkə doğuran hadisələrini, obrazlarını qələmə alır və onun bir neçə komediyasının Gəncə Dövlət Dram Teatrında tamaşaya qoyulması da onun bir dramaturq kimi püxtələşdiyini sübut edir;

9. “Gəncə ədəbi mühiti” anlayışı altında həm də Gəncədə yaranan, respublika miqyasına da gəlib çıxan ədəbi-tənqidi, ədəbiyyatşünaslıq, folklorşünaslıq və publisistik əsərlər də həmin çevrənin içərisində yer alır. Çünki tənqid, ədəbiyyatşünaslıq və publisistika da ədəbi mühitin içərisində yaranır. Ədəbi tənqid bədii ədəbiyyatın araya-ərsəyə gətirdiyi əsərlərin təhlilini verir, onları qiymətləndirir, mövzu və sənətkarlıq xüsusiyyətlərini izah edir, uğurlu cəhətləri və nöqsanları açıb göstərir, obrazları təhlil edir və ən başlıcası, bədii əsərlərin zamanla necə səsləşdiyindən söz açır. Ədəbiyyatşünaslıq isə ədəbiyyatın klassik və müasir dövründə yaranan elmi əsərlərə dəyər verir. Folklorşünaslıq isə bölgəyə məxsus milli-mənəvi dəyərlərin toplanması və araşdırılmasına imkan açır. Publisistika da bədii ədəbiyyatla sıx təmasdadır. Bunları bir-birindən təcrid etmək olmaz. Gəncədə görkəmli tənqidçi-ədəbiyyatşünaslar, folklorşünaslar və publisistlər fəaliyət göstərmişdir, indi də bu ənənə davam edir. Sabir Əliyev, Xəlil Yusifli, Sadıq Şükürov, Mürşüd Məmmədov, Bağır Bağırov, Sədnik Paşa Pirsultanlı, Rüstəm Rüstəmzadə kimi tənqidçi-ədəbiyyatşünas və folklorşünaslar sanballı elmi əsərlər yadigar qoyub getmişlər. Gəncədə Əhməd İsayev kimi görkəmli bir publisistin fəaliyyətini, ümumən Azərbaycan publisistikasının şah əsərlərindən olan “Gəncə və Gəncəlilər” kitabının isə ədəbi-tarixi əhəmiyyəti böyükdür. Təbii ki, Gəncədə yeni nəsil tənqidçi və ədəbiyyatşünaslar, publisistlər onların yolunu davam etdirirlər.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Yazıçı-tərcüməçi Cahanbaxş və XX əsr Gəncə ədəbi mühiti // – Bakı: Filologiya məsələləri, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2016. № 2, – s. 345-349
2. Yazıçı-dramaturq Altay Məmmədovun XX əsr Gəncə ədəbi-mədəni mühitində yeri // Gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransı, Qafqaz Universiteti, – Bakı: – 29-30 aprel, – 2016, – s.1171-1172
3. XX əsrin 60-70-ci illərində Gəncə ədəbi mühiti // Gənc Alimlərin I Beynəlxalq Elmi konfransı, GDU, – Gəncə: – 17-18 oktyabr, – 2016. II hissə, – s. 81-84.
4. On the literary environment of Ganja in the second half of the 20th century // – Тернопіль: Тернопільський національний педагогічний університет імені Володимира Гнатюка. Серія Літературознавство Науковı записки, – 2017. №46, – s.332-340.
5. Altay Məmmədov nəsrinin mövzu dairəsi // Azərbaycanşünaslığın aktual problemləri mövzusunda konfrans, BSU, – Bakı: – 4-5 may, –2017. – s. 243-245.
6. Altay Məmmədov yaradıcılığında folklor // Gənc alimlərin II Beynəlxalq Elmi konfransı, GDU, – Gəncə: – 26-27 oktyabr, – 2017. – s. 293-294.
7. Gəncə ədəbi mühitinin nümayəndəsi Sahib İbrahimli poeziyasının mövzu dairəsi // Gənc alimlərin III Beynəlxalq Elmi konfransı, – Gəncə: –17-18 oktyabr, – 2018, – s. 59-61.
8. Farida Aliyarbaylı, one the representatives of literary environment in Ganja city // – КИЇВ: Література в контексті культури, – 2018. Випуск 29, – s.93-96.
9. Fəridə Əliyarbəyli yaradıcılığında Gəncə // – Bakı: BDU, Dil və Ədəbiyyat Beynəlxalq elmi- nəzəri jurnal, – 2019. №3 (111), – s. 239-241.
10. Sahib İbrahimli yaradıcılığının mövzu dairəsi // Azərbaycan Universiteti, Gənc tədqiqatçıların II Respublika elmi-praktik

konfransının materialları, – Bakı: – 15 mart, – 2019, – s. 180-181.

11. Xəzangül poeziyasının mövzu dairəsi // Gənc alimlərin IV Beynəlxalq Elmi konfransı, GDU – Gəncə: – 25-26 oktyabr, – 2019. – s.232-234.
12. Sahib İbrahimlinin ədəbi-tənqidi görüşləri // Gənc tədqiqatçıların elmi-praktik konfransının materialları, Qərbi Kaspi Universiteti, – Bakı: – 2019. – s. 203-205.
13. Gülab nəfəsli hekayələr // – Bakı: Filologiya məsələləri, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2021. № 13, – s. 268-275.
14. Ganja literary environment: from the past to the present (Gəncə ədəbi mühiti keçmişdən bu günə) // 6th Asia Pacific International Modern Sciences Congress, – 15 dekabr, – 2021. – s.423-424.
15. Gəncə ədəbi mühitinin tarixi ənənələri // – Bakı: Filologiya məsələləri, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2023. №10, – s.277-284.
16. Altmışıncı illər nəsrinin Gəncə ədəbi mühitində təzahürü // XV Uluslararası Sosial Bilimlər Kongresi, – Makedoniya: – 31 may, – 2024. – s.483-490.
17. Gəncə ədəbi mühitinin əsas səciyyəvi xüsusiyyətləri // Uluslararası Ankara Bilimsel Araştırmalar Kongresi, – Ankara: –25- 27 iyun, – 2024, – s. 244-248
18. "Historical Traditions of Ganja Literary Environment" // – New York: Best Journal Of İnnovation İn Science, Research and Development, – 2024. № 1(9), – s. 63-69

Dissertasiyanın müdafiəsi 14 fevral 2025-ci il tarixində saat 14:00-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001. Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 53.
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 08 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.12.2024

Kağızın formatı: A5

Həcm: 36 660

Tiraj: 100